# ŞAGİRDLƏRƏ FƏRDİ YANAŞMA (DİFERENSİAL) PRİNSİPİ

**Sürəyya Həsənova**
*Azərbaycan Dövlət Pedaqoji Universitei*
*Xarici Dillər Mərkəzinin müəllimi*
*https: //ORCID.org/0000-0003-3155-464X*
*ilqar-757@mail.ru*

**Xülasə**

Fərdi yanaşma prinsipi hər bir şagirdin ahəngdar inkişafına, onun biliyində və əxlaqında nəzərə çarpan qüsurları vaxtında görüb aradan qaldırmağa və müsbət cəhətləri daha da inkişaf etdirməyə imkan verir. Uşaq yaşa dolduqca, onun fərdi xüsusiyyətləri də inkişaf edir və formalaşır. Müəllim təlim prosesində bu xüsusiyyətləri nəzərə almalıdır, həm də necə rəftar apardığını da unutmamalıdır.

Ümumiyyətlə, təhsil, təlim, tərbiyə, bilik və bacarıqların inkişafı zamanı hər bir şagirdə fərdi yanaşma prinsipinin önəmli rolu vardır. Eyni zamanda fərdi yanaşma hər bir şagirdin doğru inkişafına, qüsurlarının zamanında aşkar edilib, aradan qaldırılmasına, müsbət cəhətlərin daha da inkişaf etdirilməsi üçün pedaqoqlara şərait yaradır, onların qabiliyyət, bilik və bacarıqlarının, meyil və maraqlarının formalaşmasına imkan verir.

Fərdi yanaşma prinsipindən istifadə edərkən şagird temperamentlərinin nəzərə alınması nəticənin daha uğurlu olması ilə nəticələnəcəkdir. Belə ki, hər bir şagirdin xarakter, xüsusiyyət və psixologiyası, qavrama qabiliyyəti fərqli olduğundan bütün bunların fərdi yanaşmada nəzərə alınması vacibdir.

**Açar sözlər:** Təhsil, metod, temperament, prinsip, inkişaf.

# THE PRINCIPLE OF INDIVIDUAL (DIFFERENTIAL) APPROACH TO STUDENTS

**Surayya Hasanova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The principle of an individual approach allows harmonious development of each student, the timely recognition and elimination of noticeable defects in

his knowledge and morals, and the further development of his positive aspects. As the child grows up, his individual characteristics also develop and form. The teacher should take into account these features in the training process but should not forget how he behaves.

The principle of individual approach to each student plays an important role during education, training, knowledge and skills development. At the same time, the individual approach creates opportunities for educators to develop each student's positive aspects correctly, and identify and eliminate their defects in time. When using the principle of individual approach, consideration of student's temperaments will have more successful results. So, since each student's character, psychology, and perception ability are different, it is important to consider all these in an individual approach.

**Key words:** Education, method, temperament, principle, development.

## ПРИНЦИП ИНДИВИДУАЛЬНОГО (ДИФФЕРЕНЦИРОВАННОГО) ПОДХОДА К СТУДЕНТАМ

**Сурайя Гасанова**

*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Принцип индивидуального подхода позволяет обеспечить гармоничное развитие каждого ученика, своевременное выявление и устранение заметных недостатков его знаний и нравственности, дальнейшее развитие положительных сторон. По мере взросления ребенка развиваются и формируются и его индивидуальные особенности. Преподаватель должен учитывать эти особенности в тренировочном процессе, но и не забывать, как он себя ведет.

Принцип индивидуального подхода к каждому студенту играет важную роль в процессе обучения, обучения, воспитания, развития знаний и навыков. При этом индивидуальный подход создает возможности для педагогов правильно развивать каждого ученика, вовремя выявлять и устранять его недостатки, а также в дальнейшем развивать его положительные стороны.

При использовании принципа индивидуального подхода учет темпераментов учащихся приведет к более успешным результатам. Итак, поскольку характер, особенности и психология, способности восприятия

каждого ученика различны, важно учитывать все это в индивидуальном подходе.

**Ключевые слова:** воспитание, метод, темперамент, принцип, развитие.

**Giriş / Introduction**

Hər bir şagird fərqli mühitdən gəlir. Onların xasiyyəti, inkişaf mərhələləri, ailə mühiti, aldığı tərbiyə, yaşadığı ətraf mühitlə yanaşı, travmaları, qorxu və inancları fərqli olur.

Ailə tərəfindən diqqətsiz və baxımsız qalmış, valideynləri boşanmış uşağın heç şübhəsiz travma və qorxusu vardır. İnamı, ətrafa olan güvəni sarsılmışdır. Belə uşaqların daha çox qayğı və diqqətə ehtiyacları vardır. Müəllim bütün şagirdlərə eyni tərzdə yanaşmaqla uğursuzluğa imza atmış olacaq. Böyük rus pedaqoqu K.D.Uşinskiyə görə təlim-tərbiyə işi ilə məşğul olan müəllim uşağı, həyat şəraitini, inkişaf xüsusiyyətlərini yaxşı öyrənməlidir. O yazırdı: "Tərbiyəçi insanı həqiqətdə olduğu kimi bilməli, onun bütün zəif və qüvvətli cəhətləri ilə, bütün gündəlik xırda ehtiyacları və eləcə də böyük ruhi tələbləri ilə tanış olmalıdır. Tərbiyəçi insanı ailədə, cəmiyyətdə, xalq arasında, bəşəriyyət içərisində və öz vicdanı ilə üzbəüz durduğu halda öyrənməlidir. O, insanı bütün yaşlarda, bütün siniflərdə, bütün vəziyyətlərdə, şadlıq və qəmginlik hallarında, yüksələn və alçalan hallarda öyrənməlidir" [Zeynaloğlu, 2017:23].

Müəllimin uşaq psixologiyasını və onun inkişaf mərhələlərini bilməyi şagirdə doğru yanaşması ilə nəticələnəcəkdir.

Görkəmli çex pedoqoqu Y.A.Komenski qabiliyyətlərə görə insanlar arasındakı fərdi qabiliyyətləri fərqləndirərkən yazırdı: "Bəzi adamların qabiliyyətləri iti, o birilərinki kütdür, bəzilərinki yumşaq və elastik, o birilərinki isə sərt və yenilməzdir; bəziləri bilik naminə biliyə meyil edir, o biriləri isə mexaniki fəaliyyətdən zövq alır" [Zeynaloğlu, 2017:28].

Komenski müəllimlərdən şagirdlərə güzəştlə və nəzakətlə yanaşmalarını, şagirdlərin qəlbini sərt ifadələri ilə sındırmamalar, əksinə onlara qarşı məhəbbət, nəvaziş və nəsihətlərlə özlərinə cəlb etmələrini, çalışqan şagirdləri bəzən tərif etməklə həvəsləndirmələrini, şagirdlərinə şəfqətli münasibət göstərmələrini bildirmişdir. O bunun vasitəsilə müəllimlərin asanlıqla şagirdlərin qəlblərini fəth edəcəklərini, eyni zamanda da şagirdlərin təhsilə, məktəbə həvəslə yanaşacaqlarını bildirmişdir. Uşaq inkişaf dövrü çətin prosesdir və bu insanın gələcək həyatının təməlini təşkil edir.

**Uşaq inkişaf dövrünün formaları.**

Uşaq inkişafı 4 formada özünü büruzə verir.

*Fiziki inkişaf və motorika* – Hərəkət və hərəkətlər arasında koordinasiyasını əhatə edir.

*İdraki inkişaf* − məntiqi təfəkkür, yaddaş, riyazi bacarıqlar, qərarvermə, və s. nəzərdə tutur.

*Sosial – emosional inkişaf* − Qayğı göstərən şəxslər, yaşıdları və ətraf aləmlə uşaq arasındakı bağlılıqdır.

*Nitq inkişafı* – İlk hecanı dedikdən, səlis, sərbəst danışana qədər olan prosesdir [Adler, 1997:75].

Psixoloqlar insan temperamentini dörd qrupa ayırırlar: sanqvinik, xolerik, fleqmatik və melanxolik.

Hər qrupun özünəməxsus xarakter və xüsusiyyətləri olsa da, bir insanda bütün temperament növlərinin birləşməsi mümkündür. Hətta yalnız bir temperament tipinə aid olan insanla rastlaşmaq, demək olar ki, imkansızdır. Bu qruplara aid olan insanlar hər hansı bir hadisəyə fərqli reaksiya verirlər. Məs: müəllim şagirdlərə müəyyən nağılı öyrənib danışmağı tələb edir. Onların hər birinin nağılı öyrənib danışma sürəti və buna yanaşması fərqli olacaqdır. Belə ki, onlardan bəziləri nağılı tez öyrənir və anlayır. Digərləri nağılı öyrənir, lakin yaxşı başa düşmürlər. Bir qismi nağılı gec öyrənir, lakin yaxşı başa düşür və digər bir qismi isə nə nağılı öyrənə bilir, nə də mənasını başa düşür. Təfəkkürün inkişaf səviyyəsindən asılı olaraq, onların bəzilər nağılı başa düşdü və müəyyən hissəsi isə anlaya bilmədilər. Nağılın tez və gec öyrənilməsi isə insan xarakterinin dinamikasından (temperamentindən) asılıdır. Temperament tiplərini müəyyənləşdirmək üçün bir sıra nüanslara əhəmiyyət verilir.

Belə ki, bu zaman insanın emosianallığı, reaktivliyi və aktivliyi nəzərə alınır.

İnsanın aktivliyi − öz hədəfinə çatmaq üçün əzmlə çalışması, yoluna çıxan maneələrin necə öhdəsindən gəldiyi nəzərdə tutulur.

İnsanın emosianallığı isə onun xaricə, ətraf mühitə qarşı hissləri, hiss və həyəcanın yaranması, davam etməsi və sonlanması, eyni zamanda qorxu anında verilən reaksiya nəzərdə tutulur.

Reaktivlik isə insanın yeni şəraitə, xarici təsirlərə uyğunlaşması halıdır.

**Temperamentin tipləri.**

Hər bir temperamentin mənfi və müsbət xüsusiyyətləri vardır. Məsələn: sanqvinik temperament tipinə aid olan insanlar emosianal, zirək olurlar. Lakin

maraqları davamsızdır. Belə ki, onlar həvəslə başladığı işi tamamlamadan yarımçıq qoya bilərlər. İnsanlarla rahat ünsiyyət qurmağı bacarırlar və bu onlara həzz verir. Stul arxasında sabit otura bilməyən, daim hərəkətdə olan, mehriban, ünsiyyətcil, qətiyyətsiz şagirdlər sanqvinik temperament tipinə misal ola bilər.

Xolerik temperamentə aid olan insanlar coşğun xarakterli olurlar, ətrafındakı insanlarla çətin yola gedirlər, hər şeyə birinci reaksiya verənlərdəndirlər. Bu da onların daim problemlərlə üzləşməsinə səbəb olur. Kobud, səbrsiz, qətiyyətli və işgüzar şagirdlər bu temperament tipinə aid olanlardır.

Fleqmatik temperamentə aid olan insanlar sakit, susqun, səbrli və soyuqqanlı olurlar. Onlar çətinliklə ünsiyyət qurar, əsəbləşməz və yeni şəraitə çox gec uyğunlaşarlar. Lakin zamanla öyrəşdiyi insanlara qarşı mehriban və istiqanlı olurlar. Şagirdlər arasında ən səbrli, ən susqun və qapalı olanlar fleqmatik tipə aid olanlardır.

Melanxolik tipə aid olanlar isə ən həssas insanlardır. Onlar ən xırda şeylərdən inciyər, baş verən problemli hadisələri çox çətinliklə unudarlar. Hərəkətləri və danışıqları astagəl və süst olur. Özlərinə ən inamsız temperament tipidir. Öz bacarıq və potensialını görə bilməyən, ən astagəl, ən küsəyən, qorxaq şagirdlər melonxolik şagirdlərdir.

Təbii ki, bu xarakterə malik olan şagirdlərin hər birinə eyni yanaşma uğursuzluqla nəticələnəcəkdir. Belə ki, melonxolik temperament tipə aid olan şagirdlərə çox aktivlik tələb edən tapşırıqlar vermək və onun fəal olmasını gözləmək və ya onu səhv etdiyi zaman digər şagirdlərin qarşısında danlamaq, bu şagirdin motivasiyasının tamamilə zəifləməsi, fənnə, təhsilə olan marağının itməsi, tamamilə özünəqapanmasına və daha da qorxaq olmasına səbəb olacaqdır.

Amerikalı Kliniki Psixiatr Monika mak Qoldrikin istifadə etdiyi və geniş yayılmış Genoqram (sadə simvollar vasitəsilə çəkilmiş və ailə üzvləri arasındakı münasibətlərini təyin edən, göstərən xəritə və ya fotoşəkildir. Ailədaxili problemlərin təyin edilməsinə və peşəkarlar vasitəsilə onların aradan qaldırılmasına kömək edir) metodundan istifadə etməklə müəllim şagirdin ailəsində olan problem və böhranı, şagirdin zəif cəhətlərini və ailədə kimin şagirdə kömək edə biləcəyini asanlıqla təyin edə bilər [L 30] genoqramdan ilk dəfə Monika mak Qoldrik və Randi Gersonun müəllifi olduğu “Genoqramlar: Qiymətləndirmə və Müdaxilə” (“Genograms: Assessment and İntervention”) kitabında istifadə edilmişdir. Müəllim şagirdlə müzakirə zamanı ona müəyyən

suallar verərək şagirdin ailədəki mövqeyini və valideyinlərin uşağa yanaşmasında etdikləri səhvləri müəyyən edə bilər. Məs:

- Xəstələndikdə sənə qulluq edilirmi?
- Valideyinlərindən razısanmı?
- Geyim və s. alanda onlar sənin fikir və seçimlərinə hörmət edirlərmi?
- Valideyinlərinlə sevinc və kədərini paylaşa bilirsənmi?
- Onlar səninlə söhbət edirlərmi?
- Sənə seçmə haqqı verirlərmi?
- Sənin seçimlərinə hörmət edirlərmi?
- Sənin gələcək planlarını, arzularını soruşurlarmı?

Bu kimi suallar verərək müəllim ailə fərdlərinin, əsas da valideynlərin uşaqla münasibətində etdikləri səhvləri meydana çıxara bilər və bu çatışmazlıqlar üzərində işləməklə şagirdin ailəsi ilə bağının gücləndirilməsində, özünəinamının bərpasında, özünəhörmətin formalaşmasında, dərslərində uğurlu olmasında yardım edə bilər. Bu nəinki şagirdin ailəsi ilə münasibətlərinin bərpasına kömək edəcək, eyni zamanda şagirdin çatışmazlıqlarını təyin edilərək aradan qaldırılmasına səbəb olacaq. Bu da şagirdin motivasiyasının yaranmasına, davamlı olmasına, qarşısına çıxan çətinliklərin öhdəsindən rahatlıqla gəlməsinə kömək edəcək.

Eyni zamanda müəllimlər qiymətləndirmə və müqayisə metodundan istifadə etməklə də şagirdə fərdi yanaşmanı təmin edə bilərlər. Müəllimin şagirdin bilik-bacarığını, oxumağa marağını, məsuliyyətini, davamiyyətini, dinləmə bacarığını təyin etməsi onlarla işləməni asanlaşdıracaq.

Müəllimlər şagirdlərə, qabiliyyətlərini inkişaf etdirmələri üçün istiqamət verməlidirlər. Şagirdləri dərnəklərə, əlavə məşğələlərə cəlb etmək daha yaxşı nəticə verəcəkdir. Şagirdin öz qüvvəsinə inamsızlığı, yoldaşlarından geri qalması, müəllimin yanlış rəyi, ailədə çox əzizlənmək və ya heç əzizlənməmək kimi hallar şagirddə məsuliyyətsizlik yarada bilər. Müəllim təlim zamanı utancaq, nitqi zəif inkişaf edən, dikbaş, tənbəl şagirdlərə necə yanaşacağını, yeni mövzunun izahı və sual-cavabı zamanı kimlərə və hansı suallarla, necə müraciət edəcəyini nəzərə almalıdır. Müəllim yeni dərsin izahı zamanı tədris etdiyi mövzunu müasir həyatla əlaqələndirməli, aydın, səlis danışmalı və tələsikliyə yol verməməlidir. Müəllimlər şagirdlərə ev tapşırığı verərkən ciddi nöqsanlara yol verirlər. Ev tapşırığı verilən zaman mütləqdir ki, hər bir şagirdin qabiliyyət və bacarıqları nəzərə alınsın. Bu tapşırıqlar zəif şagirdlər üçün daha asanlaşdırılmalı, güclü oxuyanlar üçünsə müəyyən qədər çətinləşdirilməlidir.

Müxtəsəri, evə tapşırıq verən zaman eyniliyə yol verməк olmaz. Fərdiləşdirmə metodu şagirdlərin zəif cəhətlərinin aradan qaldırılmasında, onların sərbəst və daha həvəslə işləməsinə kömək etməklə yanaşı, motivasiyalarının daha da güclənməsinə kömək etmiş olacaqdır [Harmer, 1998:93].

Diferensial yanaşma eyni zamanda psixi inkişaf ləngiməsi, əqli əlilliyi, intellektual passivliyi olan uşaqlar üçün də çox əlverişli metoddur. Dərs zamanı belə uşaqlara daha asan və sadə tapşırıqlar verməsi ilə onları yormadan inkişafına yardım edilir. Bu cür şagirdlər bu tapşırıqları yerinə yetirməyi öyrənməklə onlarda özünəinam formalaşır, "bacarmaram" qəlibini yıxmış olur. Zamanla bu tapşırıqların çətinlik səviyyələri artırılır. Motivasiya bu şagirdlər üçün də çox önəmli faktordur. Ümumiyyətlə, şagirdin özünə və bacarıqlarına, edə biləcəyinə, imkanlarına inamı və bunun üçün səy göstərməsi vacibdir və yenə də bu prosesdə müəllimin rolu danılmazdır. Müəllim şagirdə "çətindir, amma mümkünsüz deyildir!" fikrini təlqin etməli və şagirdə özünəinamı təmin etməlidir.

Diferensial yanaşma diqqətin yalnız problemli, zəif şagirdlərə deyil, eyni zamanda güclü şagirdlərə də yönləndirməni təmin edən və müxtəlif bacarıq və meyilləri olan şagirdlərə öz bacarıqlarını göstərmə imkanı verən metoddur. Hətta fikrimizcə, şagirdləri zəif və güclü deyə qruplara ayırmaq, uşaqlar arasında ayrıseçkilik etmək deməkdir. Onun üçün onları zəif − güclü deyə ayırmaq əvəzinə, əlavə köməyə ehtiyacı olan və köməyə ehtiyacı olmayan deyə ayırmaq daha doğru olardı. Bu onların qürur və şəxsiyyətlərinin toxunulmazlığını qoruyacaqdır.

Yəni bu metod bütün şagirdləri eyniləşdirmir, əksinə hər bir şagirdin fərdi xüsusiyyətinə görə davranmanı təmin edir. Bu metodun üstün və çatışmayan cəhətləri vardır. Fərdi yanaşma prinsipinin ən üstün cəhəti odur ki, dərslər və müzakirə olunacaq mövzular tələbənin maraqlarına uyğun təşkil edilir. Məsələn, müəllim oxu siyahılarını və test tapşırıqları tələbələrin səviyyələrinə əsasən təşkil edə bilər. Keyfiyyətli dərs planından istifadə edilməsi təlim prosesində hər zaman uğur qazanmağı təmin edir. Eyni zamanda fərdi yanaşma zəif şagirdlərdə özünəinamı təmin edir, onlara nəzarət asanlaşır və daha çox diqqət göstərilir.

Güclü şagirdlərə daha çox vaxt ayırmağa imkan olur və bu, onların motivasiyasının artmasına və davamlı olmasına şərait yaradır. Ümumiyyətlə, fərdi yanaşma istər zəif olsun, istər güclü şagird – hər birində müsbət nəticə verəcəkdir, çünki hər biri öz səviyyəsinə uyğun tapşırıqları sərbəst şəkildə yerinə

yetirməyi öyrənir, bunun sayəsində onlarda özünəinam formalaşır, təlim prosesinə və öyrənməyə həvəs yaranır.

Fərdi yanaşma prinsipinin zəif cəhəti odur ki, müəllim hər səviyyə üçün xüsusi material hazırlamalı, hər bir şagirdin psixoloji vəziyyətini yaxından müşahidə etməli, onların xarakterlərini düzgün analiz etməlidir. Bütün bunlar da şagirdə fərdi yanaşma prinsipinin çətin olmasının və əksər müəllimlər tərəfindən istifadə edilməməsinin səbəbidir. Çünki fərdi yanaşma vaxt, səbr, diqqət, empatiya bacarığı və psixologiya fənnini yaxşı bilməyi tələb edir və müəllimin daha çox yorulmasına səbəb olur.

**Nəticə / Conclusion**

Fərdi yanaşma prinsipinin əsas cəhəti odur ki, müəllim hər səviyyə üçün xüsusi material hazırlamalı, hər bir şagirdin psixoloji vəziyyətini yaxından müşahidə etməli, onların xarakterlərini düzgün analiz etməlidir. Bütün bunlar da şagirdə fərdi yanaşma prinsipinin çətin olmasının və əksər müəllimlər tərəfindən istifadə edilməməsinin səbəbidir.

Bu prinsipin digər cəhəti də odur ki, zəif şagirdlər güclü şagirdlərlə eyni dərəcədə irəli gedə bilmir və bu, onların motivasiyasının müəyyən dərəcədə zəifləməsinə təsir göstərir.

Hər halda diferensial yanaşmanın üstünlükləri daha çoxdur. Müəllimin hər bir şagirdin fərdi xüsusiyyətlərini izləməklə onların zəif cəhətlərini aşkar etməsi, biliklərində yaranmış boşluqları şagirdlərə göstərməklə onlarda bunu aradan qaldırmaqda həvəs yaratması və öyrənməyə maraq yaratması təlim zamanı daha uğurlu nəticə verəcəkdir.

## Ədəbiyyat / References

1. Rüstəmov, F., Dadaşova, T. (2007). Ali məktəb pedaqogikası. − Bakı: Nurlan. − 568 s.
2. Xəlilov, H. (2012). Uşaq yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. – Bakı: Qafqaz Universiteti Nəşriyyatı. − 233 s.
3. Zeynaloğlu, C. (2017). Təlim fəaliyyətinin psixoloji xüsusiyyəti. – Bakı: Maarif. − 144 s.
4. Alfred, Adler (1997). Understanding Life: An Introduction to the Psychology. – Oxford. − 148 p.
5. Harmer, J. (1998). How to teach English. Addison Wesley. − Longman Limited. −290 p.
6. Maslow, A.H. (1943) A Theory of Human Motivation. Psychological

Review: – Oxford. − 27 p.

**Məqalə tarixçəsi**
*Daxil olub* 14.02.2024
*Düzəlişə göndərilib* 16.02.2024
*Qəbul edilib* 10.03.2024
*Nəşrə tövsiyə edib* Nazilə Abdullazadə
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*